Respublika.- 2019.- 16 avqust.- S.1
WWW.RESPUBLICA-NEWS.AZ

# Cümhuriyyət dövründə ərazi-sərhəd məsələlərinə dair

**Azərbaycan Xalq Cümhuriyyətinin xalqın istiqlal mübarizəsində oynadığı rol, onun müstəqil dövlət quruculuğu, suverenlik təcrübəsi Azərbaycanın zəngin və əvəzsiz tarixi nailiyyəti, milli-mənəvi sərvətidir. Həmin dövrdə dövlət quruculuğunun bütün sahələri kimi, sərhədlərin mühafizəsi məsələsi də yeni bir mərhələ təşkil edir. İlk müstəqil dövlətin qurulduğu dövrdə tarixi şərait Azərbaycan ordusunun yaranmasını şərtləndirdiyi kimi, sərhəd mühafizə qüvvələrinin də təşkilini tələb edirdi. Bu qüvvələrin yaradılması və formalaşdırılmasında hökumət və parlament kompleks tədbirlər həyata keçirsə də, qonşu dövlətlərlə ərazi-sərhəd mübahisələrinin həll edilməməsi, xarici təcavüzlərə, daxili düşmən qüvvələrə, xüsusilə erməni separatçılarına qarşı mübarizə dövlət sərhəd mühafizəsi sahəsində vahid strukturunun təşkili istiqamətində işlərin başa çatdırılmasına imkan vermədi. Ancaq bütün bunlara baxmayaraq, AXC dövründə sərhəd mühafizə qüvvələrinin yaradılması və fəaliyyəti Azərbaycan Silahlı Qüvvələrinin keçdiyi yol tarix ənənə və varislik baxımından mühüm əhəmiyyət kəsb edir.**

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədər çar Rusiyasının tərkibində olan Azərbaycanın sərhədləri hüquqi, siyasi baxımdan qeyri-müəyyən olaraq qalmışdır. Rusiyanın parçalanmasından sonra, müstəqil dövlətin qurulmasına qədər Cənubi Qafqaz Komissarlığının və Seyminin daxilində mövcudluğunu davam etdirən Azərbaycan sərhədlərinin müəyyənləşdirilməsi və əsasən gürcü və erməni tərəfləri ilə ərazi-sərhəd problemlərinin həlli ilə əlaqədar səyləri də lazımi nəticəni verməmişdir. Xüsusilə Cənubi Qafqaz Seyminin Türkiyə tərəfi ilə 1918-ci ilin mart ayında aparılan Trabzon danışıqları və may ayının 11-də baş tutan Batum konfransı nəticəsiz qalmışdır. Bütün bu məsələlər Azərbaycanın müstəqilliyini elan etməsindən sonra daha böyük səylə davam etdirilsə də, qeyd olunan səbəblərdən qismən həllini tapmışdır.

Cənubi Qafqaz dövlətləri arasında sərhədlərin müəyyənləşdirilməsi haqqında məsələ ilk dəfə rəsmi surətdə Osmanlı imperatorluğu hökuməti ilə hər üç respublikanın arasında 1918-ci il iyunun 4-də imzalanmış dostluq müqavilələri olmuşdur. Ermənistanla imzalanmış müqaviləyə görə, Ermənistan Transqafqazda cəmi 10 min kvadratkilometr əraziyə malik dövlət idi. Azərbaycan Respublikası adından Milli Şuranın sədri M.Ə.Rəsulzadənin və xarici işlər naziri M.H.Hacınskinin imzaladıqları müqavilənin 3-cü maddəsinə əsasən üç respublika öz aralarında dövlət sərhədlərini müəyyən edərək protokollaşdırmalı (bu sənədlər müqavilənin ayrılmaz tərkib hissəsini təşkil edəcəkdi) və Osmanlı imperatorluğu hökumətinə müvafiq qaydada məlumat verməli idilər. Müqavilənin 5-ci maddəsində gələcəkdə yaradılacaq sərhəd mühafizə qüvvələrinin də başlıca vəzifələrindən olacaq, o dövrdə mühüm əhəmiyyət kəsb edən bir məsələyə toxunulurdu: "Azərbaycan Respublikası hökuməti həmin ərazilərin hüdudlarında silahlı quldur dəstələrinin təşkilinə cidd-cəhdlə mane olmağı və bu ərazidə sığınacaq tapmış quldur dəstələrini tərk-silah edib, zərərsizləşdirməyi öz öhdəsinə götürür". Lakin Osmanlı imperatorluğunun Birinci Dünya müharibəsində məğlubiyyəti son nəticədə bu planın həyata keçməsinə, müqavilənin maddələrinin reallaşdırılmasına imkan vermədi.

1918-ci ilin iyunundan etibarən Cənubi Qafqaz respublikalarının hər biri ərazi-sərhəd məsələləri ilə bağlı öz layihələrini bölgədə nüfuz sahibi olan müxtəlif dövlətlərə (Böyük Britaniya, Almaniya, Türkiyə və s.) təqdim etməklə onların dəstəyini almaqla digər respublikalarla razılaşdırmaq məqsədi güdürdülər. Azərbaycan nümayəndələri də öz layihələrini Türkiyə və Almaniya tərəfə təqdim etmişdilər. Həmin sənəddə Azərbaycana daxil edilən ərazilər və onun sərhədləri aydın göstərilmişdi. Bura bütün Bakı vilayəti (Bakı şəhəri daxil olmaqla Bakı qəzası, Cavad, Göyçay, Şamaxı, Quba, Lənkəran qəzaları), Gəncə vilayəti (Gəncə, Qazax, Cavanşir, Şəki, Ərəş, Qarabağ, Cəbrayıl, Zəngəzur qəzaları), İrəvan vilayəti (Naxçıvan, Şərur-Dərələyəz, Yeni Bəyazid qəzaları), Tiflis vilayəti (Borçalı, Sığnaq qəzaları və Tiflis qəzasının bir hissəsi), Zaqatala sancağı daxil idi. Bu layihəyə əsasında Borçalı qəzası vasitəsilə Azərbaycanla Türkiyə arasında dəhliz açılmalı idi.

Ümumiyyətlə, Cümhuriyyət hökuməti tərəfindən müstəqilliyin ilk vaxtlarından Azərbaycanın Gürcüstan və Ermənistanla sərhədlərinin müəyyənləşdirilməsi üçün bir neçə layihə və təkliflər hazırlanmışdır. Bu layihə və təkliflərin birinə əsasən Azərbaycan mübahisəsiz ərazisi 840.000 verst və ya 96.502 kvadratkilometr sahəyə malik idi. Paris sülh konfransında iştirak edən Azərbaycan nümayəndə heyəti tərəfindən konfransın katibliyinə təqdim edilmiş 50 səhifədən ibarət "Qafqaz Azərbaycanı Respublikasının nümayəndəliyinin Paris sülh konfransına memorandumu"nda ölkənin hökumətin nəzarəti altında olan mübahisəsiz ərazisinin 837.866 kvadrat verst, yaxud 94.137,38 kvadratkilometr olduğu göstərilirdi. Yeri gəlmişkən, həmin Memoranduma Azərbaycanın Rusiyadan ayrıldıqdan sonra malik olduğu ərazilərin inzibati bölgüsü və sərhədlərini əks etdirən xəritə də əlavə edilmişdir.

Azərbaycan Respublikasının Ünvan - təqvimində isə Azərbaycan ərazisi aşağıdakı kimi göstərilmişdir: mübahisəsiz və mübahisəli ərazilər. Mübahisəsiz ərazi 853.489 kvadrat verst /97 297,67 kvadratkilometr/, mübahisəli ərazilər ilə birlikdə isə 999.088,7 kvadrat verstə /113,895, 97 kvadratkilometrə/ bərabər idi. Beləliklə, mövcud vəziyyət təcili surətdə sərhədlərin müəyyənləşdirilməsini və hər üç respublikanın iqtisadi və digər sahələrdə qarşılıqlı inkişafını təmin edəcək şəraitin yaradılmasını tələb edirdi. Əslində 114,000 kvadratkilometrdən də artıq sahəyə malik olan Azərbaycanın ərazisinin hər iki halda mövcud olduğundan az göstərilməsi hökumət tərəfindən Azərbaycanın öz qonşuları ilə normal münasibətlərin qurulmasına necə yüksək əhəmiyyət verməsinin göstəricisi hesab etmək olardı.

Cənubi Qafqaz respublikaları arasında sərhədlərin müəyyənləşdirilməsi sahəsində ilk ikitərəfli addım Azərbaycanla Gürcüstan arasında atılmışdır. 1918-ci il iyunun 26-da Zaqatala dairəsi Milli Şurası bölgənin Azərbaycana birləşməsi haqqında yekdilliklə qərar qəbul etdi. İyunun 30-da isə AXC hökuməti özünün müvafiq qərarı ilə o vaxtadək neytral olan Zaqatala dairəsinin xanlıqlar dövründən tərkibində olduğu Azərbaycanın ərazisinə daxil edilməsini rəsmiləşdirdi. Azərbaycan hökuməti digər mübahisəli məsələlərin də danışıqlar yolu ilə həll edilməsi mövqeyində durur və qonşularından da bunu gözləyirdi.

Azərbaycan və Gürcüstan hökumətləri arasında digər razılıq onların müstəqilliyinə olan ciddi təhlükə ilə əlaqədar əldə olunmuşdur. Onlar arasında 1919-cu il iyunun 16-da üç il müddətinə bağlanan sazişdə çox mühüm, o cümlədən sərhəd məsələləri də əksini tapmışdı. Sazişdə dövlətlər bütün silahlı qüvvələri və hərbi vəsaitləri ilə razılığa gələn respublikalardan birinin və ya hər ikisinin müstəqilliyini və ya ərazi bütövlüyünü təhdid edən hər hansı hücuma qarşı birgə çıxış etməyi öhdələrinə götürürdülər. Həmçinin əgər hər hansı qonşu dövlət əsasən hərbi əməliyyat başlanan zaman bir və ya hər iki müttəfiqə sərhəd mübahisələrinin silah gücünə həll edilməsi məqsədilə hücum edərsə, onda bu dövlət vuruşan tərəf kimi qəbul edilirdi. Sazişin xüsusi əhəmiyyəti 4-cü maddədə sərhəd məsələlərinin daha konkret şəkildə əksini tapmasıdır:

"Razılığa gələn tərəflər onlar arasında meydana çıxa biləcək sərhədlər haqqında mübahisələri saziş və ya arbitraj yolu ilə həll etməyi öhdələrinə götürürlər. Belə halda qəbul edilən qərar hər iki tərəf üçün sonuncu və mütləq hesab olunur".

Bu istiqamətdə daha bir addım, avqustun 21-də atılmış, Gürcüstan hökuməti Azərbaycan və Gürcüstan arasında mübahisəli sərhəd məsələlərini həll etmək üçün arbitraj komissiyanın yaradılması haqqında qərar qəbul edilmiş və avqustun 31-də bu barədə Azərbaycan tərəfinə məlumat verilmişdi. Xüsusi komissiyada ərazi və onunla bağlı digər məsələləri həll edəcək bu konfransın işinin keçirilməsinə erməni nümayəndələrinin gəlməməsi maneçilik törətdi.

Lətuf Şüküroğlu